

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 12 (21.673)

18 yanvar 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 17-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti xanım Doris Löythardın görüşü olub.

Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın yeni sahələri əhatə etdiyini deyən xanım Doris Löythard maliyyə sektorunda artıq uğurlu əlaqələrin qurulduğunu vurğulayıb, ölkələrimizin enerji sahəsində də səmərəli əməkdaşlıq etdiyini bildirib.

Xanım Doris Löythardın ölkəmizə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında uğurlu tərəfdaşlıq əlaqələrinin olduğunu deyib. Dövlətimizin başçısı Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən islahatlardan, dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin təsirlərinin aradan qaldırılması və iqtisadiyyatın inkişaf etdirilməsi, həmçinin iqtisadiyyatın və ixracatın şaxələndirilməsi ilə bağlı ölkəmizdə görülən işlərdən danışıb.

Görüşdə ölkələrimiz arasında dəmir yolu sahəsində yaxşı əməkdaşlığın olduğu vurğulanıb, TAP və TANAP layihələri, investisiya, maliyyə-kredit, kənd təsərrüfatı, əczaçılıq və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Prokurorluq orqanları ötən ili uğurla başa vurublar



*Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.*

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə edib. Məruzəçi qeyd edib ki, 2016-cı il muxtar respublikamız üçün uğurlu olub. Bu dövrdə prokurorluq orqanlarının bütün səyləri muxtar respublika rəhbərinin tapşırıq və tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, işin keyfiyyətinin yüksəldilməsinə, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla mənfi təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilib.

Bildirilib ki, hesabat dövründə muxtar respublika prokurorluğunun əməkdaşları cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən quruculuq işlərinin əsas təminatlarından biri olan ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin etməyə çalışıblar.

Vurğulanıb ki, ötən il ərzində peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlərin göstərilməsi ilə bağlı muxtar respublika ərazisində cinayət hadisəsi qeydə alınmayıb. Hüquqi maarifləndirmə və profilaktika işi daha da gücləndirilib, muxtar respublika prokurorluğu tərəfindən prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 869 dəfə təbliğat işi aparılıb, kütləvi informasiya vasitələrində 385 dəfə, o cümlədən televiziyada 109, radioda 29, mətbuatda isə 247 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində əməyin mühafizəsi qaydalarına riayət edilməsinə nəzarət olunması məqsədilə 2016-cı ildə prokurorluğun mərkəzi aparatının və rayon (şəhər) prokurorluqlarının əməliyyat işçiləri bu işə cəlb edilib və hazırda digər müvafiq orqanlarla əlaqəli şəkildə bu sahədə tədbirlər mütəmadi olaraq davam etdirilir.

Qeyd edilib ki, ötən il əldə olunan nəticələr arxayınçılığa şərait yaratmamalı, bundan sonra da cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün səy göstərilməli, işlər qarşıya qoyulan yüksək tələblər səviyyəsində qurulmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

## 2016-cı ildə gömrük orqanlarının maddi-texniki bazası daha da möhkəmləndirilib



2016-cı ildə muxtar respublikada sosial-iqtisadi sahədə inkişaf təmin edilib. Həyata keçirilən infrastruktur layihələri, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən işlər sayəsində bu inkişaf gömrük orqanlarını da əhatə edib. Ötən il Sədərək sərhəd-gömrük buraxılış məntəqəsi üçün dünya standartlarına uyğun kompleksin tikintisi davam etdirilib. Naxçıvan-Məşhəd dəmir yolu xəttinin fəaliyyətə başlaması ilə muxtar respublika gömrüyünün xidmət dairəsi daha da genişlənib. Naxçıvan və Culfa şəhərlərinin dəmir yolu vağzallarında rentgen nəzarəti qurğuları və elektron məlumat lövhələri quraşdırılıb, gömrük nəzarətinin aparılması üçün lazımi şərait yaradılıb. 2016-cı ilin sentyabr ayında istifadəyə verilən Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb terminalı"nda da gömrük xidmətinin təşkili üçün infokövşk, elektron məlumat lövhələri və termal kamera qurulub. Bundan əlavə, avtonəqliyyat vasitələrinin keçidini sürətləndirmək məqsədilə Sədərək və Culfa sərhəd-keçid məntəqələrində yeni avadanlıqlar və xüsusi proqram təminatı quraşdırılaraq "Sərhədkeçmə vaxtının ölçülməsi" sisteminin tətbiqinə başlanılıb.

Bu fikirlər Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasında səsləndirilib. 2016-cı ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda komitənin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov məruzəsində bildirib ki, 2016-cı ildə muxtar respublika gömrük orqanları dövlət büdcəsinin formalaşdırılması üçün müəyyən olunmuş 7 milyon manat proqnoz-tapşırığı yerinə yetirib. Gömrük ödənişləri Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 9,6 faizini təşkil edib.

Qeyd olunub ki, ötən il 56 xarici dövlətlə ticarət əməliyyatları aparılıb, muxtar respublikanın xarici ticarət dövriyyəsi 463 milyon 244 min ABŞ dolları olub. Ötən il xarici ticarət dövriyyəsinin 90 faizi ixrac, 10 faizi isə idxal əməliyyatlarının payına düşüb. İdxal-ixrac əməliyyatları üzrə yaranmış müsbət saldo 374 milyon 996 min ABŞ dolları həcmində olub.

Komitə sədri bildirib ki, istehlakçıların yüksəkkeyfiyyətli mallarla təmin edilməsi üçün idxal olunan bütün qida məhsulları Naxçıvan Gömrük Ekspertizası İdarəsinin laboratoriyasında analiz olunaraq gömrükdən buraxılışı həyata keçirilib, ötən dövr ərzində 6109 ton maldan götürülən nümunələrin laboratoriya analizləri aparılıb.

Qeyd olunub ki, 18 mart 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi" mövzusunda keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən verilmiş tapşırığa əsasən turistlərin gömrük sərhədindən sürətli keçidi təmin olunur, gömrük orqanlarındakı infokövşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı tanıtım videoçarxları nümayiş etdirilir.

İclasda ötən il görülmüş işlərlə əlaqədar komitənin şöbə və idarə rəislərinin çıxışları dinlənilib, qarşıda duran vəzifələr müzakirə olunub.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2016-cı ildə öz işini təsdiq edilmiş tədbirlər planına uyğun qurub, gənclər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib.*

## Gənclər və İdman Nazirliyində kollegiya iclası keçirilib



Ümumilikdə, il ərzində nazirlik tərəfindən dövlət gənclər siyasəti və idman sahəsində 361 tədbir icra edilib ki, bunlardan 139-u gənclərlə iş, 222-si isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə edib.

Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Nazir bildirib ki, 2016-cı ildə mütəmadi olaraq muxtar respublikanın şəhər və rayonlarında gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, onların tarixi yerlərə və muzeylərə gəzintiləri təşkil olunub. Çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması məqsədilə gənclərin hərbi hissələrdə əsgər və zabitlərlə görüşü keçirilib. Yeniyetmə və gənclərin intellektual səviyyələrinin yüksəldilməsi məqsədilə "Nuh yurdu" intellektual oyununun keçirilməsinə diqqət artırılıb, rayon və muxtar respublika birinciliklərı təşkil olunub.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar Naxçıvan Şahmat Mərkəzində Beynəlxalq Şahmat Festivalı, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Heydər Əliyev Kuboku" uğrunda Paralimpiya üzrə Beynəlxalq Festival, usta ağır atletlər arasında Avropa çempionatı, Şərur Olimpiya-İdman Kompleksində kikboksinq üzrə peşəkarlararası kəmər müdafiəsi uğrunda yarışlar da yaddaqalan olub. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü münasibətilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində kişilər arasında voleybol üzrə Azərbaycan çempionatının I dövrə oyunlarında, Şərur Olimpiya-İdman Kompleksində karate üzrə beynəlxalq turnirdə də idmançılar yaxşı nəticələr uğrunda səy göstəriblər.

2016-cı ildə ayrı-ayrı növlər üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 1, Avropa çempionatlarında 5, beynəlxalq turnirlərdə 63, Azərbaycan birinciliklərində 39 medal olmaqla, cəmi 108 medal qazanıblar.

Diqqətə çatdırılıb ki, nazirlik tərəfindən 2 fevral – Gənclər Günü, Novruz bayramı və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı gənclərin mükafatlandırılması münasibətilə tədbirlər keçirilib. Bundan başqa, 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, 15 İyun – Milli Qurtuluş Günü, 10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi, Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə əlaqədar tədbirlər də yaddaqalan olub.

2016-cı ilin yekunlarından geniş bəhs olunduğu kollegiya iclasında nöqsanlara da toxunulub.

Məruzə ətrafında çıxışlarda muxtar respublikada idmanın inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışılıb və qeyd edilib ki, idman təşkilatları öz vəzifə borclarına yüksək məsuliyyətlə yanaşmalı, qazanılan uğurlarla kifayətlənməməli, daha böyük qələbələrlə muxtar respublika idmanına öz töhfələrini verməlidirlər.

**Xəbərlər şöbəsi**

# 2016-cı ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib.***

Kollegiya iclasında komitənin sədri Bəxtiyar İsmayılov bildirib ki, muxtar respublikamızda keyfiyyət infrastrukturunun inkişaf etdirilməsi, əhalinin sağlamlığının qorunması, məhsul, iş və xidmətlərin təhlükəsizliyinin təmin edilməsi və keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr durur. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" üzrə idxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət edilməsi tədbirinin icrası istiqamətində 2016-cı ildə idxal olunmuş 143 halda məhsulun üzərinə Azərbaycan dilində zəruri məlumatların vurulması təmin olunub. Əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə 2015-ci il mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə xidmət mərkəzlərində 43 halda baxış keçirilib. Qanunvericiliyə uyğun olmadığından 34 informasiya xarakterli lövhənin istifadəsi qadağan edilib. Xidmət mərkəzlərində 274,80 manat dəyərində yararlılıq müddəti bitmiş məhsulun satışına qadağa qoyulub. Ümumilikdə, ötən il ərzində standartların tələblərinə uyğun olmayan 2566,80 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsul satışdan çıxarılıb, 1589 halda məhsulların keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunub. Bundan əlavə, təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 1392 halda laboratoriya analizləri aparılıb və aşkar edilən nöqsanlar aradan qaldırılıb.

Komitə sədri bildirib ki, bərbərxana və gözəllik salonlarında istifadə olunan alətlərin mütəmadi olaraq sterilizasiyasını təmin etmək məqsədilə müvafiq təsərrüfat subyektlərində sterilizatorlardan istifadə prosesi nəzarətdə saxlanılıb, ötən il ərzində 141 ədəd sterilizator quraşdırılıb. Eyni zamanda 2016-cı il ərzində 713 ədədi ərzaq məhsullarına, 822 ədədi qeyri-ərzaq məhsullarına, 5 ədədi isə xidmət sahəsinə aid olmaqla, ümumilikdə, 1540 ədəd uyğunluq sertifikatı verilib. Bunlardan 640 ədədi istehsal olunan məhsullara, 895 ədədi xaricdən gətirilmiş məhsullara verilmiş uyğunluq sertifikatlarıdır, 5 ədədi isə göstərilən xidmətə aiddir. Qeyd olunub ki, əmtəə nişanlarının, ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin mühafizəsi üzrə 60 müraciət daxil olub. Ümumilikdə, əmtəə nişanlarının mühafizəsinə dair 73 şəhadətnamə, coğrafi göstəricinin mühafizəsinə dair 1 şəhadətnamə, ixtiranın mühafizəsinə dair 2 patent, sənaye nümunəsinin mühafizəsinə dair 7 patent, əmtəə nişanının qeydiyyatının qüvvədəolma müddətinin uzadılması üçün 13 bildiriş verilib.

Sonra məruzə ətrafında çıxışlar olub, qazanılan uğurlardan, işdə buraxılan nöqsanlardan və qarşıda duran vəzifələrdən danışılıb.

* * *

***2016-cı ildə Naxçıvan Muxtar Respublikasının bank qurumları fəaliyyətlərini təsdiq olunmuş tədbirlər planına uyğun qurub. Naxçıvanda fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2017-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 109 milyon 195 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 7 milyon 937 min manat, uzunmüddətli kredit qoyuluşu 101 milyon 258 min manat təşkil edib.***



Kreditləşmədə əsas məqsəd aqrar sektorun inkişafı, ixraca yardım, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Muxtar respublika əhalisinə verilmiş 10 milyon 90 min manat məbləğində şəxsi istehlak kreditləri və daşınmaz əmlak alınması üçün 9 milyon 788 min manat məbləğində ipoteka kreditləri nəticəsində vətəndaşların mənzil şəraiti yaxşılaşdırılıb, real sektor dəstəklənib.

Bu sözləri Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən yığıncaqda idarənin sədri Səbuhi Məmmədov deyib. O bildirib ki, kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib.

Vurğulanıb ki, banklar və kredit təşkilatları tərəfindən 2016-cı il ərzində 43 milyon 355 min manat kredit verilib. Həmin vəsaitlərin 10 milyon 512 min manatı qısamüddətli, 32 milyon 843 min manatı uzunmüddətli kreditlərin payına düşüb. Muxtar respublikada təklif edilən faiz dərəcəsi ölkədə iqtisadi rayonlar arasında kreditlər üzrə tətbiq olunan ən aşağı faiz dərəcələridir.

2016-cı il ərzində aqrar sahənin inkişafı digər sahələr kimi diqqət mərkəzində saxlanılıb və bu istiqamətdə verilmiş kreditlər portfelin 22,9 faizini və ya 9 milyon 911 min manatını təşkil edib. Sənaye və real sektora isə 15 milyon 100 min manat məbləğində kreditlər verilib. Verilmiş kreditlərin 42,2 faizini kiçikhəcmli kreditlər təşkil edib.

Banklar tərəfindən 2016-cı il ərzində 2160 hüquqi, 53620 fiziki şəxs olmaqla, 55780 müştəriyə xidmət göstərilib. Xidmət olunan hesabların 46163-ü işlək hesab olub. Onların 1410-u hüquqi, 44753-ü fiziki şəxsdir.

İl ərzində 87 hüquqi, 15259 fiziki şəxs olmaqla, 15346 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının 15343-ü fəaliyyət göstərir ki, onların 85-i hüquqi, 15258-i fiziki şəxsdir.

Qeyd olunub ki, 2 mart 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"dan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlər davam etdirilib.

Bildirilib ki, 1 yanvar 2017-ci il tarixə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 556-sı Naxçıvan şəhərində, 646-sı isə rayon və kənd mərkəzlərində olmaqla, 1202 ədədə çatdırılıb. POS-terminalların sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 158 ədəd artıb. POS-terminalların quraşdırılması hal-hazırda davam etdirilir.

Muxtar respublikada 1 yanvar 2017-ci il tarixə 56-sı Naxçıvan şəhərində, 43-ü rayon və kənd mərkəzlərində olmaqla, 99 ədəd bankomat fəaliyyət göstərir.

Məruzə ətrafında müzakirələrdə çıxış edən bank əməkdaşları hesabat ili ərzində işdə buraxılmış nöqsanlar, onların aradan qaldırılması yolları və 2017-ci ildə qarşıya qoyulan vəzifələr barədə danışıblar.

***2016-cı ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən müşavirəni xidmətin rəisi, miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq məruzə edib.***



Məruzəçi bildirib ki, 2016-cı il ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz əmək miqrasiyasının qarşısının alınması və iş icazələrinin qüvvədəolma qaydalarına nəzarət etmək məqsədilə müvafiq tədbirlər həyata keçirilib.

Hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin aşkar edilməsi istiqamətində müntəzəm tədbirlər həyata keçirilib, müəyyən edilmiş inzibati pozuntu halları ilə bağlı müvafiq qərarlar qəbul edilib.

Qeyd olunub ki, 2016-cı il ərzində muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 338 əcnəbi aşkarlanıb. Aşkarlanmış əcnəbilərdən 180-i barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən cərimə inzibati tənbeh növü tətbiq edilib, 143-ü 48 saat müddətində, 15-i isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılıb.

Bu dövr ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 10324 müraciət daxil olub. Həmin müraciətlərdən 8509-u şəxsən təqdim edilib, 1815-i Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin elektron poçt ünvanına və elektron hökumət portalına göndərilib.

"Hesabat dövründə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə, ümumilikdə, 646 müraciət daxil olub. Daxil olmuş müraciətlərdən 617-si icra olunub, 29-u isə hazırda icra mərhələsindədir", – deyən xidmət rəisi bildirib ki, bu dövr ərzində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı daxil olan 6 müraciətin hamısı icra edilib.

Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar xidmətə 619 müraciət daxil olub. Daxil olmuş müraciətlərin 616-sı icra olunub, 3-ü isə icraatdadır.

Bu dövr ərzində 202 – Miqrasiya Məlumat Mərkəzinin fəaliyyəti artırılıb. Əvvəllər yalnız stasionar telefon nömrələri vasitəsilə müraciətlər qəbul olunurdusa, artıq "Naxtel" şəbəkəsindən də müraciətlərin qəbul edilməsi təmin olunub. İl ərzində 202 – Miqrasiya Məlumat Mərkəzinə əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikasının vətəndaşları tərəfindən miqrasiya sahəsində qüvvədə olan qanunvericilik, müraciətlərin icrası vəziyyəti və digər məsələlərlə bağlı 240 müraciət daxil olub. Daxil olmuş hər bir müraciət tam, dəqiq və operativ cavablandırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub, xidmətin 2016-cı ildəki fəaliyyəti ətraflı təhlil edilib, əvvəlki ilin göstəriciləri ilə müqayisələr aparılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində də 2016-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.***



İclasda agentliyin baş direktoru Hikmət Əsgərov çıxış edərək deyib ki, ötən dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi və rayon (şəhər) Dövlət Sığorta agentlikləri öz fəaliyyətini sığorta işinin inkişafı istiqamətində qurub.

2016-cı ildə muxtar respublikada sığorta fəaliyyətinin daha da genişləndirilməsi, sığorta mədəniyyətinin inkişafı, sığortanın kütləviliyinin təmin olunması üçün bir sıra tədbirlər görülüb. Belə ki, sığorta sahəsində əhalinin maarifləndirilməsi məqsədilə muxtar respublikanın əksər yaşayış məntəqələrində tədbirlər keçirilib. Vətəndaşlarla sığorta müqavilələri bağlanılarkən müqavilənin şərtləri barəsində ətraflı məlumat verilməsi diqqətdə saxlanılıb və sahibkarlıq subyektlərinə sığortanın ayrı-ayrı növləri ilə əlaqədar bildiriş vərəqələri verilərək məlumatlandırma işləri aparılıb.

Qeyd olunub ki, sığorta işinin daha da təkmilləşdirilməsi məqsədilə ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən yerli icra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirələr keçirilib.

Vurğulanıb ki, 2016-cı ildə sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasının həyata keçirilməsi və sığorta etdirməyənlərin sığortaya cəlb olunması məqsədilə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə sahibkarlıq subyektlərində bu icbari sığorta növünün əhəmiyyəti, şərtləri, üstünlükləri, icbari sığortanın mahiyyəti barədə izahedici və maarifləndirici söhbətlərin aparılması davam etdirilib.

Ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərdən sığorta tədiyələrinin toplanması həcmi 2015-ci illə müqayisədə 2,2 faiz, qeyri-həyat (ümumi) sığortası üzrə sığorta tədiyələrinin toplanması həcmi 2,6 faiz artıb. 2015-ci ilin yekunları ilə müqayisədə muxtar respublikada 2016-cı ildə, ümumilikdə, bağlanmış sığorta müqavilələrinin sayı 4900 ədəd, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 2080 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 622 ədəd artıb.

İclasda kənd təsərrüfatı sığortasının əhəmiyyətindən də bəhs olunaraq bildirilib ki, 2016-cı ildə muxtar respublikanın bütün rayonlarında yerli icra hakimiyyəti orqanları ilə birlikdə kənd təsərrüfatı, xüsusilə bitkiçilik sığortasının əhəmiyyəti barədə izahat-məlumatlandırma işləri aparılıb və 1358 müqavilə bağlanılıb.

İclasda Dövlət Sığorta agentliklərinin direktorları çıxış edərək görülmüş işlər haqqında məlumat veriblər.

**Xəbərlər şöbəsi**

# Naxçıvanın geniş ixrac imkanları vardır

## Muxtar respublikada səfərdə olan Türkiyə Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndə heyəti bu fikirdədir



***Türkiyə Respublikası İqtisadiyyat Nazirliyinin İxracat İdarəsinin rəisi Tayfun Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında ikigünlük səfərdə olub.***

Səfər çərçivəsində qonaqlar ümummilli liderimizin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər. “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanış olan nümayəndə heyəti muxtar respublikanın yerli istehsal müəssisələrində olub, regionun ixrac potensialı ilə maraqlanıb.

“Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi”, “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi”, “Gəmiqaya Mebel Fabriki”, “Gəmiqaya Mineral Sular”, “Ləzzət Biskvit və Şokolad Fabriki”, “Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi”, “Araz-3” Məhdud Məsuliyyətli cəmiyyətləri və Naxçıvan Sənaye Kompleksi ilə tanışlıq zamanı qonaqlara burada istehsal olunan məhsullar haqqında məlumat verilib, onların ixrac imkanlarından bəhs edilib.

Yanvarın 17-də Naxçıvan Biznes Mərkəzinə gələn nümayəndə heyətinə məlumat verilib ki, mərkəzin əsas missiyası sahibkarlara xidmət, biznesin inkişafı üzrə onlara məsləhətlərin verilməsi, biznesə yeni başlayanlar üçün treninqlərin təşkili, biznes-planların hazırlanmasında metodoloji dəstək göstərilməsidir. Qeyd olunub ki, hazırda burada Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına və yuyucu vasitələrə, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər xeyli çeşiddə müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan “Gəmiqaya Holdinq”, “Dizayn Holdinq”, “Cahan Holdinq” Şirkətlər ittifaqları, “Zümrüd” Kiçik Müəssisəsi, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Sonra Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Türkiyədən gəlmiş nümayəndə heyətinin yerli sahibkarlarla görüşü keçirilib.

Türkiyənin ölkəmizdəki səfirliyinin və Naxçıvandakı Baş Konsulluğunun nümayəndələrinin də iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək bildirib ki, Türkiyə ilə Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında bütün sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Bu əməkdaşlıqda iqtisadi münasibətlər məxsusi əhəmiyyət kəsb edir. Qeyd olunub ki, ölkəmizdə həyata keçirilən mühüm tədbirlər, o cümlədən özəl sektora göstərilən dövlət qayğısı muxtar respublikada da çoxsaylı sahibkarlıq subyektlərinin yaradılması ilə nəticələnib. Yeni istehsal müəssisələrinin istifadəyə verilməsi hesabına hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Vurğulanıb ki, yerli istehsal müəssisələrinin sayının artması və keyfiyyətli məhsul istehsalı Naxçıvanın ixrac potensialını artırır. Hazırda yerli sahibkarlar tərəfindən müxtəlif ölkələrə Naxçıvan məhsulları ixrac edilir. Muxtar respublika sahibkarlarına məhsul ixracı baxımından əlverişli sayılan ölkələrdən biri də Türkiyə Respublikasıdır. Muxtar respublikanın ekoloji cəhətdən təmiz və təbii ərzaq məhsulları və öz keyfiyyəti ilə seçilən sənaye malları Türkiyə bazarında özünə etibarlı yer tuta bilər. Çalışmalıyıq ki, bu sahədə mövcud imkanlardan yetərincə istifadə edək.





Türkiyə İqtisadiyyat Nazirliyi İxracat İdarəsinin rəisi Tayfun Kılıç çıxışında Türkiyə ilə Azərbaycan arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini bildirib, Naxçıvanda istehsal olunan məhsulların ixracı üçün həyata keçiriləcək tədbirlərin önəmini vurğulayıb.

Sonra Türkiyə nümayəndə heyəti ilə sahibkarlar arasında muxtar respublikada istehsal olunan məhsulların qardaş ölkəyə ixrac edilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

*Türkiyə İqtisadiyyat Nazirliyi İxracat İdarəsinin rəisi Tayfun Kılıç “Şərq qapısı” qəzetinə müsahibəsində deyib:*



– Qeyd etmək istərdim ki, dost və qardaş Azərbaycana – Naxçıvana səfər etməkdən çox məmnunuq. Buraya nümayəndə heyəti ilə gəlmişik və səfərimizin əsas məqsədi iqtisadi əlaqələrin, xüsusilə ixracyönümlü məhsulların Türkiyə bazarına çıxarılması yönündə mövcud vəziyyətin öyrənilməsidir. Bildiyiniz kimi, dövlət başçılarımızın görüşündə bu məsələ müzakirə olunub. Türkiyə hökumətinin müəyyənləşdirdiyi kvotaya əsasən, Qars və İqdır vilayətlərinə muxtar respublikadan 150 milyon ABŞ dolları həcmində sənaye və kənd təsərrüfatı məhsulları ixrac edilə bilər. Türkiyə tərəfi bir sıra məhsullar üçün gömrük rüsumlarını ləğv edib. Həmin məhsulların ixracı üçün muxtar respublikada fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları problemlərin həlli Türkiyə hökuməti tərəfindən diqqətdə saxlanılacaq və lazımi addımlar atılacaqdır. İki ölkə arasında ticarət əlaqələrinin genişlənməsi ümumi inkişafımıza xidmət edir.

Burada olarkən Naxçıvanın çox dəyişildiyinin, inkişaf etdiyinin şahidi olduq. Eyni zamanda səfər proqramı çərçivəsində Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələri ilə tanışlıq nümayəndə heyətimizdə xoş təəssürat yaratdı. Biz sevinirik ki, qardaş Azərbaycanın Naxçıvan Muxtar Respublikasında bu gün xeyli sayda həm ərzaq, həm də qeyri-ərzaq məhsulları istehsal edilir. Bu məhsulların böyük əksəriyyətinin xammalı da Naxçıvandadır. İstehsal müəssisələrində müasir tələblərə cavab verən şəraitin yaradıldığının şahidi olduq. Naxçıvanın zəngin iqtisadi potensialı var və dövlətinizin həyata keçirdiyi tədbirlər nəticəsində bu gün həmin potensialdan lazımınca istifadə olunur. Biz Naxçıvan şəhərində ərzaq məhsulları satılan marketlərdə olduq və xeyli çeşiddə yerli ərzaq malları ilə rastlaşdıq. Həm keyfiyyət, həm də qablaşdırma baxımından seçilən bu məhsullar yerli bazarda özünə möhkəm yer tutub. Qeyri-ərzaq məhsulları istehsal edən müəssisələrdə keyfiyyəti ilə seçilən məhsullar istehsal olunur. Bizə məlumat verildi ki, Naxçıvan mineral su mənbələri ilə zəngindir və hazırda bu sahə üzrə yaradılmış müəssisələr fəaliyyət göstərir. Öyrəndik ki, Naxçıvanın mineral suları bir çox ölkələrə ixrac olunur. Bütün bunlar onun göstəricisidir ki, Naxçıvanın ixrac üçün böyük potensialı var. Bundan əlavə, yerli sahibkarlarla işgüzar görüşümüz oldu, onlarla bir çox məsələləri müzakirə etdik. Düşünürəm ki, burada keçirdiyimiz görüşlər faydalı oldu. Ümid edirəm ki, müzakirə etdiyimiz məsələlər, qarşıda duran vəzifələrin birgə həlli yaxın gələcəkdə Naxçıvanda istehsal olunan məhsulların Türkiyə bazarına çıxışında əhəmiyyətli rol oynayacaq.

**✍ Səbuhi HƏSƏNOV**

# 2016-cı ildə Naxçıvanda 5845 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır



***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. 2016-cı ildə komitə yeni inzibati binaya köçürülmüş, müasir iş şəraiti yaradılmışdır. Bu da qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan vermişdir. Ötən il muxtar respublikada torpaqlardan təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarəti artırılmış, mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativlik təmin edilmişdir.***

“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda müəyyənləşdirilmiş vəzifələrin icrası diqqətdə saxlanılmışdır. Belə ki, il ərzində torpaqlardan istifadə zamanı əlavə torpaq itkisinə yol verilməməsi, xüsusi mülkiyyətdə olan kiçik ərazilərin birləşdirilərək daha böyük sahələr halında istifadə edilməsi, aqrotexniki tədbirlərin aparılması zamanı çəkilən xərclərin azaldılması, məhsul itkisinin qarşısının alınması, münbitliyin qorunması və torpaqlardan səmərəli istifadə edilməsinin əhəmiyyəti barədə torpaq mülkiyyətçiləri arasında maarifləndirici tədbirlər keçirilmişdir. Həmçinin Naxçıvan şəhəri, Şərur, Babək, Culfa və Kəngərli rayonlarında əkilməyən torpaq sahələrinə baxış keçirilmiş, bu məqsədlə müəyyən edilən ərazilər xəritələşdirilərək aidiyyəti üzrə təqdim edilmişdir.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda müəyyənləşdirilmiş vəzifələr də icra olunmuş, əkin sahələrinin mövcud vəziyyəti öyrənilmişdir. Babək rayonunun 6, Ordubad rayonunun 4, Culfa rayonunun 3, Şərur rayonunun 4 kəndi üzrə torpaqların qida maddələri ilə təmin olunmasına dair kartoqramlar hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrası ilə əlaqədar ərazi vahidlərini, inzibati ərazi dairələrini və sahə inzibati ərazi dairələrini əks etdirən xəritələr və müxtəlif miqyaslı plan və kartoqrafik materiallar, bələdiyyə xəritələri elektron variantda hazırlanmışdır. Torpaq payı almış ailələrin siyahısı, pay torpaqlarının sahəsi barədə məlumatlar və verilmiş sənədlərin rekvizitləri, torpaqların texniki uçotunun nəticələrinə dair əvvəlki illərə aid hesabatlar və yerquruluşu planları, ərazi vahidlərinin, inzibati ərazi dairələrinin, sahə inzibati ərazi dairələrinin, bələdiyyələrin, yaşayış məntəqələrinin sərhədləri, kənd təsərrüfatı yerləri haqqında məlumatlar, torpaq islahatına cəlb edilmiş kənd təsərrüfatı yerlərinin sərhədləri, meşə və kolluqlar haqqında məlumatlar, qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar haqqında məlumatlar toplanaraq komitənin elektron məlumat bazasına yığılmışdır. Bu dövrdə Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar xəritələşdirilmişdir.

Muxtar respublikanın bütün yaşayış məntəqələrində torpaq sahələrinin təyinatı üzrə istifadə vəziyyəti yoxlanılmış, aşkarlanmış faktlar aktlaşdırılmış, torpaqların qanunsuz istifadəsinin aradan qaldırılması və qanunsuz tikililərin sökülərək torpaqların əvvəlki vəziyyətinə qaytarılması üçün müvafiq tədbirlər görülmüşdür. Bununla yanaşı, Naxçıvan şəhərinin 1, 2, 3 və 4 nömrəli sahə inzibati ərazi dairələrinin, Şahbuz rayonunun Ayrınc, Babək rayonunun Göynük və Nəhəcir kəndlərinin inzibati ərazi dairələrinin və ərazi vahidlərinin, Naxçıvan şəhərinin və Kəngərli rayonunun bələdiyyə xəritələri yerquruluşu sənədlər qovluğu ilə birlikdə hazırlanaraq təsdiq edilmişdir.

Ordubad rayon inzibati ərazi vahidinin tərkibinə daxil olan 33, Culfa rayon inzibati ərazi vahidinin tərkibinə daxil olan 11 bələdiyyənin ərazilərində həyətyanı və pay torpaq sahələri ortofotoplana əsasən dəqiqləşdirilmiş, mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritələri hazırlanmışdır. Babək rayonunun 20, Şərur rayonunun 9 bələdiyyəsinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmışdır. Şərur rayonunun 4, Babək rayonunun 14 yaşayış məntəqəsində həyətyanı torpaq sahələrinin elektron taxeometr vasitəsilə planalma işləri başa çatdırılmışdır. Geodeziya, topoqrafiya və kartoqrafiya işlərinin həyata keçirilməsi nəticəsində Şərur rayonu ərazisinin topoqrafik xəritələri yenilənmişdir. “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”nın hazırlanması ilə əlaqədar 120, “Dədə Qorqud yurdu Naxçıvan” tarixi və etnoqrafik atlasının tərtib olunması ilə əlaqədar 240 xəritə hazırlanaraq təqdim olunmuşdur.

2016-cı ildə, ümumilikdə, muxtar respublika üzrə 2909 torpaq sahəsi, 147 qeyri-yaşayış binası, 60 qeyri-yaşayış sahəsi, 945 mənzil, 1765 fərdi yaşayış evi, 13 əmlak kompleksi kimi müəssisə, 6 çoxmərtəbəli yaşayış binası olmaqla, cəmi 5845 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. İl ərzində 353 girov qeydi aparılmış, yüklülüyə dair 3655 arayış verilmiş, komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlərdən 357 müraciət daxil olmuş və icra edilmişdir. Bu dövrdə muxtar respublika üzrə 97 yaşayış məntəqəsində səyyari xidmət təşkil olunmuş, 1032 vətəndaşın müraciətinə baxılmışdır. Sahibkarlara məxsus 114 əmlak da real bazar dəyərinə uyğun olaraq qiymətləndirilmiş, 1506 əmlakın bazar dəyəri məlumat bankına daxil edilmişdir.

2017-ci il ərzində qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi səylərini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Müstəqilliyimizin şəhidlik zirvəsi

***Naxçıvan Dövlət Universitetində “20 Yanvar müstəqilliyimizin şəhidlik zirvəsidir” mövzusunda dəyirmi masa keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan xalqının milli azadlıq hərəkatı və müstəqillik tarixindən, 20 Yanvar faciəsinin səbəblərindən bəhs edib. Qeyd olunub ki, 27 il bundan əvvəl keçmiş Sovet İttifaqının qoşun hissələrinin fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın digər rayonlarında 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Lakin bu faciə xalqın milli əzm və iradəsini qıra, onu



müstəqillik uğrunda mübarizəsindən döndərə bilməyib. Saleh Məhərrəmov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu faciəyə siyasi-hüquqi qiymət verilməsindəki tarixi xidmətlərindən danışaraq vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün və dövlət müstəqilliyinin qorunması, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin sosial şəraitlərinin yaxşılaşdırılması ilə bağlı bu gün də əhəmiyyətli işlər görülür.

Dəyirmi masada Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini Xəzər Hüseynov çıxış edərək bildirib ki, 1990-cı ilin 20 yanvarında süquta uğramaqda olan işğalçı sovet imperiyası milli azadlıq hərəkatını boğmaq məqsədilə əksəriyyəti ermənilərdən ibarət olan xüsusi təyinatlı ordunu Bakıya yeritdi, eyni zamanda Naxçıvan erməni işğalına məruz qaldı. Yanvar ayında ilk olaraq ermənilərin Sədərəyə hücumu zamanı Naxçıvan 9 şəhid verdi, 21 nəfər yaralandı.

Vurğulanıb ki, 1990-cı il 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi məsələsi ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən birinci sessiyasında müzakirə olunub.

Universitetin Kitabxanaçılıq kafedrasının dosenti Sədaqət Nemət 20 Yanvar faciəsi zamanı 20 mindən artıq hərbçinin, güclü hərbi texnikanın iştirakı ilə dinc, günahsız insanların, qadın və uşaqların, qocaların kütləvi şəkildə qətlə yetirildiyini, vətənpərvər xalqın şəhidləri görünməmiş izdihamla son mənzilə yola saldığını bildirib.

Diskussiya zamanı qeyd olunub ki, 20 Yanvar hadisələrinə beynəlxalq müstəvidə hələ də düzgün siyasi qiymət verilməyib. Azərbaycan xalqının milli əsarətə, qətliama qarşı mübarizə günü olan bu tarix, şəhidlərimizin müqəddəs xatirəsi yaddaşlarda daim yaşayacaqdır.

**Mehriban SULTAN**

# Orda bir kənd vardı...

## *Kərkililər doğma yurd yerlərinə qayıdacaqlarına əmindirlər*



***İllərdir ki, düşmən tapdağı altında olan yurd yerlərimizə səsimiz çatmır, ünümüz yetmir. O yurd yerlərimiz də gözlərini yollara dikib bizi gözləyir. O yurd yerlərindən biri də sərhəd bölgəsi, doğma diyarımızın alınmaz qalası olan Sədərək rayonunda, Tejkar dağının ətəyində yerləşən Kərki kəndidir.***

Kənd yaşıllığa bürünmüşdü. Elə bir yaşıllığa ki, uzaqdan baxanda meşəyə bənzədirdin. Möhrədən işlənmiş kipçərək evləri yaşıllıq gözəgörünməz etmişdi.

Ərənləri qurşaq tutar, at minər, cıdıra çıxardılar. Xanım-xatın gözəlləri oğlanlardan geri qalmazdılar. Bişirdiklərinin ətri beş-altı ev uzağa yayılardı.

Kəndin dişgöynədən bulaqları vardı. Minbir zümzümə ilə axırdılar. Meyvə və üzüm bağlarının məhsullarını şirinlikdən yemək olmurdu. Hələ qarpızını, qovununu demirəm.

Bu kiçik yurd yerinin özünəməxsus xüsusiyyətləri vardı. Kənddə ki bir xeyir iş oldu, ta toy qurtarana qədər hamı bir nəfər kimi o evə yığışırdı, təkcə mal-heyvan örüşdən qayıdanda tez gəlib yerbəyer etdikdən sonra toy evinə qayıdırdılar. Səhərəcən çal-çağır kəsilməzdi. Qara zurnanın səsi dağları tərpədərdi, qonşu kəndlərə gedib çıxardı.

Kənd adamları bir evə düşən yası bütün kəndin hüznü sayırdılar.

Bütün bunların hamısının başında ağsaqqallar və ağbirçəklər dururdu. Onların sözləri bu kəndin yazılmamış qanunları idi. Kimsə bu qanunlardan kənara çıxmaq barədə düşünə belə bilməzdi. Kəndin mövcudluğu dövründə belə şey görünməmişdi.

Beləcə, günlər aylara, aylar illərə qovuşur, bir nəsil digərini əvəz edirdi.

…Bir gün acı ruzigar o kəndin qapısını döydü. O gün kəndin işıqları söndü…Yaman söndü. Erməni vəhşiləri söndürdü...

...Arpaçayın sahilində yerləşən bu kəndin adı 1728-ci il tarixli “İrəvan quberniyasının müfəssəl dəftəri”ndə “Kərkiçik” adı ilə qeydə alınıb. “Kərki vətənpərvərləri” İctimai Birliyi tərəfindən “İşğal olunmuş torpağımız – Kərki kəndi və tarixi həqiqətlər” adlı araşdırmada bu kəndin tarixi, tarixi coğrafiyası haqqındakı məlumatlar Kərkinin qədim Azərbaycan torpağı olmasını bir daha təsdiqləyir. Naxçıvan Muxtar Respublikasının şimal-şərqində, Sədərək kəndinin 8-10 kilometrliyində yerləşən, 960 hektar ərazisi olan kəndin adı isə türk qıpçaq tayfası olan kərkililərlə bağlıdır. Kərki toponiminə ölkəmizdə və bir sıra türkdilli xalqların yaşadıqları ərazilərdə də rast gəlmək olur. Qarabağda Kərkicahan şəhəri, Göyçə mahalında Kərkibaşı kəndi, Türkmənistanda Kərki rayonu və şəhəri, həmin respublikanın Cərco vilayətində Kərkiçi dəmiryol stansiyası, Kərkidağ toponimi də bu tayfa adından qaynaqlanıb...

* * *

Kəngərli rayonunun Yeni Kərki kəndindəyəm. Doğma ata-baba yurdlarından didərgin salınaraq burada məskunlaşan insanlarla görüşməyə gəlmişəm. Kərki ilə bağlı acılı-şirinli xatirələrini dinləyirəm. O günlərin canlı şahidi Paşa Əhmədovun söhbəti:

– Vəziyyət elə bir həddə çatmışdı ki, ilk olaraq qadınları, qocaları, uşaqları kənddən çıxardıq. Ermənilər ağlasığmaz təxribatlara əl atır, elektrik enerjisini və rabitə xətlərini tez-tez kəsirdilər. Mal-qaranı örüşə çıxara bilmirdik. 333 nəfər əhalisi olan kənd 2 il – 1988-1990-cı illərdə bu vəziyyətdə yaşadı. Nə vaxta qədər belə davam edəcəyi barədə düşünmədən mənfur ermənilərin hücumlarının qarşısını ov silahları ilə aldıq, öz doğma yurd yerimizi müdafiə edə bildik. Bu, 1990-cı il yanvarın 16-dək çəkdi. Artıq yanvarın 17-nə keçən gecə kənddə 17 kişi qalmışdı. Kənd 3 minə yaxın erməni silahlı birləşmələri tərəfindən mühasirədə idi... Vəziyyətin gərginliyini özünüz təsəvvür edin. Dörd bir tərəfdən mühasirəyə alındığımızı biləndə artıq çıxış yolu axtarmağın yeri deyildi. Sanki yelkənsiz, sahibsiz adada idik. Heç bir yerdən işıq ucu görünmürdü. Doğma yurd yerindən çıxmaqdan başqa əlacımız qalmamışdı. Razılaşdıq ki, yaxşı tanıdığımız ensiz bir cığırla gecə vaxtı kənddən çıxaq. Bu yolu ermənilər ona görə saxlamışdılar ki, Kərkidə qalanları həmin cığırda məhv edə bilsinlər. Ona görə də ancaq gecə çıxmağımız təhlükəsiz ola bilərdi. Şaxta getdikcə güclənirdi. Məndə olan durbinlə “Şurud dərəsi” istiqamətindən yola düşdük. Ermənilərin ağlına gəlməyən bu yolla mən dəstənin əvvəlində gedir, durbinlə ətrafa baxırdım. Bu minvalla 6-7 saat yol getdikdən sonra Sədərəyə çatdıq.

– Kərkidə 1988-ci ildə başlanan hadisələr 1989-cu ilin dekabr ayının sonlarında daha gərgin vəziyyətə çatmışdı. Bunu nəzərə alaraq o vaxt Sədərək kəndindəki məktəblərin birində toplantı keçirildi. Vəziyyətdən çıxış yolu axtarıldı. Naxçıvan Vilayət Partiya Komitəsinə, Dövlət Təhlükəsizlik Komitəsinə və Daxili İşlər Nazirliyinə teleqram göndərildi. Kəndin vəziyyətinin ağır olduğu bilinsə də, heç bir tədbir görülmədi. Ümid qaldı kənd sakinlərinin özlərinə. Kəndin üç yerində post quruldu. Hər postda 15 nəfər könüllü dayanırdı. Qonşu rayonlardan da buraya könüllülər gəlirdilər. İki il ərzində Kərki dəfələrlə atəşə tutuldu. Köhnə Kərki, O tay, Sənəm zağası, kəndin girəcəyindəki Şurran körpüsü tərəfdən atışmalar daha intensiv xarakter almışdı. Guya bizi müdafiə etməyə gələn rus hərbçiləri isə öz işlərində idilər. Qədim bir oğuz-türk yurdunun düçar olduğu və insan ağlına sığışmayan hadisələr onların gözlərinin qarşısında baş verirdi. Ən ağır gün yanvarın 15-i və 16-sı oldu. Bir neçə kənd sakini ağır yaralandı. Artıq quduzlaşmış ermənilərin hücumlarının qarşısını almaq mümkün deyildi. Bu sözləri Kəngərli Rayon İcra Hakimiyyətində çalışan Mahir İsmayılov deyir.

Ömrünün doqquzuncu on illiyinə qədəm qoymuş təqaüdçü Seyran İsmayılova da Kərkidə baş verən hadisələri gözləri ilə görüb:

– Heç kim inanmazdı ki, bir gün biz o kəndsiz qalacağıq. O kənd də bizsiz qalmağa məcbur ediləcək. Gözləmirdik belə olacağını. Ancaq sən saydığını say, gör fələk nə sayır. Mən və mənim kimi yaşlı insanların gözləri hələ də yol çəkir. Oradan çıxan kərkililərin bir qismi Şərur, Babək, Ordubad rayonlarında, Naxçıvan və Bakı şəhərlərində, bir qismi isə Qax rayonunda yaşayırlar. Dövlətimiz kərkililərə hər cür qayğı göstərsə də, doğma yurd həsrəti hələ də içimizi yandırır. Ora qayıtmaq ümidlərimiz hələ də yaşayır. Bugünkü gənclik Yeni Kərkidə böyüyüb. Bizim gördüyümüz Kərki haqqında ancaq söhbətlərimizi eşidib.

Yeni Kərki kənd tam orta məktəbinin müəllimi Aygün Bayramova deyir ki, bugünkü gəncləri Vətənimizə məhəbbət ruhunda tərbiyə etmək üçün bütün qüvvəmizlə çalışırıq. Kərkililər qoçaq, məğrur insanlardır. Onların 1988-1990-cı illərdə yaşadıqlarını, gördüklərini, çəkdikləri əzab-əziyyətləri davamlı şəkildə məktəblilərə çatdırmağa, onların Vətənə, doğma Kərkiyə məhəbbət ruhunda tərbiyə edilməsinə, xalqımızın ulu tarixinin olduğu kimi öyrədilməsinə çalışırıq. Kərki ilə bağlı hazırladığımız sərgi bugünkü məktəblilərə qədim yaşayış məntəqəsinin o illərdəki keşməkeşli günlərini bütün çalarları ilə göstərir.



Kənd ziyalısı Elşad Məmmədov:

– Etiraf etmək lazımdır ki, Kərki kəndi mövcud olduğu dövrdə bir o qədər də diqqət görməyib. Yalnız kənd sakinlərinin şikayətlərindən sonra 1989-cu ilin aprel ayında kəndin sosial-iqtisadi inkişafı ilə bağlı ovaxtkı Naxçıvan MSSR Nazirlər Soveti qərar qəbul etmişdi. Lakin gec idi. Çünki 1988-ci ildə başlanan hadisələr elə sürətlə davam edirdi ki, o vaxt ancaq kəndi və kənd adamlarını qurtarmaqdan söhbət gedə bilərdi. Təəssüf ki, kəndi qurtarmaq mümkün olmadı. Kərkililər nə qədər müqavimət göstərsələr də, o yurd yerimiz ermənilərin əlinə keçdi. İnsanların bir qismi isə Yeni Kərki kəndində məskunlaşdılar. Öz ata-baba torpaqlarından zorla çıxarılmış bu kəndin sakinlərinin üzləşdikləri problemlərin aradan qaldırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi hesabına kərkililərin problemləri öz həllini tapdı, onlar üçün ayrılmış torpaq sahəsində yeni mənzillər tikildi. Kənd sakinlərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlər görüldü. Kənddə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, məktəb yaradıldı, kənd qazlaşdırıldı, telefon çəkildi. 2010-cu ildə isə kənddə kompleks quruculuq işləri aparıldı, yeni məktəb binası, kənd mərkəzi və məişət evi inşa edildi. Kərkililər elektrik enerjisi, mavi yanacaq, rabitə xidməti haqlarını güzəştli şərtlərlə ödəyirlər.

* * *

Yeni Kərki kənd tam orta məktəbinin XI sinfində oldum. Burada 6 şagird təhsil alır. Sinifdə qürurverici bir məqamla rastlaşdım. 17 yaşlı bu şagirdlər Kərkinin 27 il bundan əvvəlki iki il yaşanan həyatını əzbər bilirlər. Məktəbin aşağı siniflərində oxuyan uşaqlarla da söhbət etmək keçdi fikrimdən. Elə o anda düşündüm ki, bu yaşlarda olan uşaqların valideynləri Kərkini görməyiblər, onlar Kərkinin işğalından sonra anadan olublar. Həmin valideynlərin uşaqlarının, yəqin ki, Kərki haqqında təsəvvürləri olmaz. Demə, fikrimdə yanılmışam. Uşaqlardan birinin dedikləri məni həm düşündürdü, həm də qəlbimi qürurla doldurdu:

– Babam Kərki kəndinin şəklini böyüdüb öz otağından asıb. O şəklə baxanda gözləri dolur. Babama söz vermişəm ki, hərbçi olacağam, Kərkini ermənilərdən alacağam.

* * *

*Uşağın bu sözlərində gələcəyə nikbin baxışları duymaq çətin deyildi. Elə onun sinif yoldaşlarının da çöhrələrindən bunu oxudum. Məktəbin qapısından çıxanda ürəyimdə dedim ki, dövlətimizin həyata keçirdiyi sülhməramlı siyasət, Azərbaycan Ordusunun getdikcə güclənməsi, kərkililərin yurd-torpaq yanğısı, sabaha böyük ümidləri sizi Kərkiyə qaytaracaq. O gün uzaqda deyil.*

**Muxtar MƏMMƏDOV**

### *İtmişdir*

Kərimov Vüqar Qərib oğlunun adına 2008-ci ildə Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 43